RSM Azerbaijan LLC

THE POWER OF BEING UNDERSTOOD

AUDIT | TAX | CONSULTING

# "ASSİST FİNANCE İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı**

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə

RSM

## MÜNDƏRİCAT

MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI


Maliyyə vəziyyəti haqqında hesabat .... 4
Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat .... 5
Kapitalda dəyişikliklər haqqında hesabat .... 6
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat .... 7

Maliyyə hesabatları üzrə qeydlər

1 Cəmiyyət və onun əsas fəaliyyəti .... 8
2 Cəmiyyətin əməliyyat mühiti .... 9
3 Əhəmiyyətli uçot siyasətləri .... 9
4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli uçot təxminləri və fərziyyələr .... 20
5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi .... 22
6 Pul vəsaitləri və onların ekvivalentləri .... 23
7 Yüklü olan maliyyə aktivləri .... 24
8 İnvestisiya qiymətli kağızları .... 24
9 İstifadə hüququ olan aktivlər və icarə öhdəlikləri .... 24
10 Əmlak və avadanlıqlar .... 26
11 Digər aktivlər .... 26
12 Müştərilərə ödəniləcək vəsaitlər .... 26
13 Repo müqavilələri əsasında borc alınmış vəsaitlər .... 27
14 Digər öhdəliklər .... 27
15 Nizamnamə kapitalı .... 27
16 Digər gəlirlər .... 28
17 Haqq və komissiya xərcləri .... 28
18 İşçi heyəti ilə bağlı xərclər .... 28
19 Faiz xərcləri .... 28
20 Digər əməliyyat və inzibati xərclər .... 29
21 Mənfəət vergisi xərci .... 29
22 Təəhhüdlər, şərti öhdəliklər və əməliyyat riskləri .... 31
23 Maliyyə risklərinin idarə edilməsi .... 31
24 Əlaqəli tərəflərlə əməliyyatlar .... 35
25 Hesabat tarixindən sonrakı hadisələr .... 35

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

Bu bəyannamə "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə bağlı rəhbərliyin və müstəqil auditorların göstərilən məsuliyyətlərini fərqləndirmək məqsədi ilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2023-cü il tarixinə Cəmiyyətin maliyyə vəziyyətini, həmin ildə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini əks etdirən maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") uyğun şəkildə hazırlanması üçün məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS-yə müvafiq hazırlanması və ya əgər hər hansı bir kənarlaşma varsa, onun maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Cəmiyyət işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Cəmiyyət daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq düzgün hazırlanması və Cəmiyyətin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatları 07 mart 2024-cü il tarixində Cəmiyyətin rəhbərliyi tərəfindən təsdiq edilmişdir.

Rəhbərlik adından:

**Cəfər İbrahimov**
**Direktor**

**Elvira Məmmədova**
**Direktor müavini**

RSM Azerbaijan
Demirchi Tower 5th floor,
37 Khojaly ave, AZ1025,
Baku, Azerbaijan
T +994(12) 480 4571
F +994(12) 480 4563
www.rsm.az

# MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarı və Rəhbərliyinə:

**Rəy**

Biz "Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2023-cü il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2023-cü il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Digər məsələ**

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə Cəmiyyətin maliyyə hesabatlarına 03 aprel 2023-cü il tarixində digər müstəqil auditor tərəfindən müsbət rəy bildirilmişdir.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri verilmiş Şəxslərin Məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.



RSM Azerbaijan is a member of the RSM network and trades as RSM. RSM is the trading name used by the members of the RSM network. Each member of the RSM network is an independent accounting and consulting firm which practices in its own right. The RSM network is not itself a separate legal entity in any jurisdiction.

**Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;

- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

07 mart 2024-cü il

RSM Azerbaijan

Bakı, Azərbaycan Respublikası

**"ASSIST FİNANCE İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 136,283 | 927,855 |
| Ticarət hesabında olan pul vəsaitləri | | 112,380 | 50,704 |
| Yüklü olan maliyyə aktivləri | 7 | 1,000,503 | - |
| İnvestisiya qiymətli kağızları | 8 | 1,080,066 | 458,600 |
| Müştərilərin investisiya portfeli | | 20,991 | 2,203,691 |
| İstifadə hüququ olan aktivlər | 9 | 166,215 | - |
| Əmlak və avadanlıqlar | 10 | 9,430 | 8,869 |
| Qeyri-maddi aktivlər | 10 | 96,160 | 96,421 |
| Digər aktivlər | 11 | 50,912 | 8,277 |
| **Cəmi aktivlər** | | **2,672,940** | **3,754,417** |
| **Öhdəliklər və kapital** | | | |
| **Öhdəliklər** | | | |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 13 | 1,032,000 | - |
| Müştərilərə ödəniləcək vəsaitlər | 12 | 112,380 | 2,258,735 |
| İcarə öhdəlikləri | 9 | 121,375 | - |
| Mənfəət vergisi üzrə öhdəlik | 21 | 142,810 | 7,692 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 21 | 9,894 | 6,049 |
| Digər öhdəliklər | 14 | 63,514 | 97,802 |
| **Cəmi öhdəliklər** | | **1,481,973** | **2,370,278** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 15 | 350,000 | 1,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 840,967 | 384,139 |
| **Cəmi kapital** | | **1,190,967** | **1,384,139** |
| **Cəmi öhdəliklər və kapital** | | **2,672,940** | **3,754,417** |

07 mart 2024-cü il tarixində Cəmiyyətin adından təsdiqlənmiş və imzalanmışdır.

**Cəfər İbrahimov**
**Direktor**

**Elvira Məmmədova**
**Direktor müavini**

8-35-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**"ASSIST FİNANCE İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **Gəlirlər** | | | |
| Dilinq gəlirləri | | 746,269 | 485,707 |
| Broker xidmətləri üzrə gəlirlər | | 817,157 | 299,299 |
| İnvestisiya gəlirləri | | 6,210 | 4,957 |
| Effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz gəliri | | 26,489 | 75,836 |
| Digər əməliyyat gəlirləri | 16 | 61,134 | 109,618 |
| **Cəmi gəlirlər** | | **1,657,259** | **975,417** |
| **Xərclər** | | | |
| Haqq və komissiya xərcləri | 17 | (272,571) | (280,051) |
| İşçi heyəti ilə bağlı xərclər | 18 | (222,129) | (234,031) |
| Faiz xərcləri | 19 | (65,495) | (1,354) |
| Digər əməliyyat və inzibati xərclər | 20 | (273,493) | (322,732) |
| **Cəmi xərclər** | | **(833,688)** | **(838,168)** |
| **Əməliyyat üzrə mənfəət** | | **823,571** | **137,249** |
| Məzənnə fərqindən xərc | | (3,183) | (14,000) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **820,388** | **123,249** |
| Mənfəət vergisi | 21 | (163,560) | (24,157) |
| **İl üzrə xalis mənfəət** | | **656,828** | **99,092** |
| **Digər məcmu gəlir** | | - | - |
| **İl üzrə cəmi məcmu gəlir** | | **656,828** | **99,092** |

07 mart 2024-cü il tarixində Cəmiyyətin adından təsdiqlənmiş və imzalanmışdır.

**Cəfər İbrahimov**
**Direktor**

**Elvira Məmmədova**
**Direktor müavini**

**"ASSİST FİNANCE İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **01 yanvar 2022-ci il** | **1,000,000** | **285,047** | **1,285,047** |
| İl üzrə cəmi məcmu gəlir | - | 99,092 | 99,092 |
| **31 dekabr 2022-ci il** | **1,000,000** | **384,139** | **1,384,139** |
| İl üzrə cəmi məcmu gəlir | - | 656,828 | 656,828 |
| Nizamnamə kapitalında azalma | (650,000) | - | (650,000) |
| Elan edilmiş dividendlər | - | (200,000) | (200,000) |
| **31 dekabr 2023-cü il** | **350,000** | **840,967** | **1,190,967** |

07 mart 2024-cü il tarixində Cəmiyyətin adından təsdiqlənmiş və imzalanmışdır.

**Cəfər İbrahimov**
**Direktor**

**Elvira Məmmədova**
**Direktor müavini**

8-35-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

**"ASSİST FİNANCE İNVESTİSİYA ŞİRKƏTİ" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**
**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Vergidən əvvəlki mənfəət | | **820,388** | **123,249** |
| **Nağdsız əməliyyatlar üzrə düzəlişlər:** | | | |
| Köhnəlmə və amortizasiya | 10 | 34,931 | 2,296 |
| Valyuta əməliyyatları üzrə dəyişiklik, xalis zərər | | 3,183 | 14,000 |
| Faiz gəlirləri | | (26,489) | (75,836) |
| Faiz xərcləri | 19 | 65,495 | 1,354 |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **897,508** | **65,063** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | | | |
| Ticarət hesabında olan pul vəsaitlərində dəyişiklik | 6 | (61,676) | 117,183 |
| Yüklü olan maliyyə aktivləri üzrə xalis dəyişiklik | 7 | (1,000,503) | - |
| İnvestisiya qiymətli kağızları üzrə xalis dəyişiklik | 8 | (169,076) | (410,000) |
| Müştərilərin investisiya portfeli üzrə xalis dəyişiklik | | 2,182,700 | (2,095,621) |
| Digər aktivlər üzrə xalis dəyişiklik | 11 | (42,635) | (14,590) |
| Müştərilərə ödəniləcək vəsaitlər | 12 | (2,149,538) | - |
| Digər öhdəliklər | 14 | (34,288) | (14,771) |
| **Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətinə yönəldilmiş pul vəsaitlərinin axını** | | **(377,508)** | **(2,352,736)** |
| Ödənilmiş faiz | | (65,495) | - |
| Alınmış faiz | | 26,489 | - |
| Ödənilmiş mənfəət vergisi | | (24,598) | (14,107) |
| **Əməliyyat fəaliyyətinə yönəldilmiş xalis pul vəsaitlərinin axını** | | **(441,112)** | **(2,366,843)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan xalis pul vəsaitlərinin axını** | | | |
| Alınmış dividend | | 6,210 | - |
| İnvestisiya qiymətli kağızlarının satışı | | (458,600) | - |
| Əmlak, tikili və avadanlıqların alınması | 10 | (2,738) | - |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul vəsaitlərinin axını** | | **(455,128)** | **-** |
| **Maliyyə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Nizamnamə kapitalının azalması | 15 | (650,000) | - |
| Alınmış borc vəsaitləri | | 71,649,000 | 88,653 |
| Alınmış borc vəsaitlərinin qaytarılması | | (70,617,000) | - |
| İcarə öhdəlikləri üzrə əsas ödəniş | 9 | (77,332) | - |
| Ödənilmiş dividend | | (200,000) | - |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitlərinin axını** | | **104,668** | **88,653** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma** | | **(791,572)** | **(2,278,190)** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, *ilin əvvəlinə*** | 6 | **927,855** | **3,206,045** |
| **Pul vəsaitləri və onların ekvivalentləri, *ilin sonuna*** | 6 | **136,283** | **927,855** |

07 mart 2024-cü il tarixində Cəmiyyətin adından təsdiqlənmiş və imzalanmışdır.

**Cafar İbrahimov**
**Direktor**

**Elvira Məmmədova**
**Direktor müavini**

8-35-ci səhifələrdə təqdim edilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

## 1. Cəmiyyət və onun əsas fəaliyyəti

"Assist Finance İnvestisiya Şirkəti" Açıq Səhmdar Cəmiyyəti ("Cəmiyyət") 15 fevral 2018-ci il tarixində Azərbaycan Respublikasında qeydiyyata alınmış və tasis olunmuş "BTB Kapital İnvestisiya Şirkəti" ASC-nin hüquqi varisidir. "BTB Kapital İnvestisiya Şirkəti" ASC-yə Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən verilmiş 12 oktyabr 2018-ci il tarixli İŞ-03 saylı investisiya şirkəti fəaliyyətinə lisenziya əvəzinə hüquqi varis olan Cəmiyyət Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 20 iyun 2023-cü il tarixində verilmiş lisenziya əsasında fəaliyyət göstərir.

Cəmiyyətin əsas fəaliyyəti Azərbaycan Respublikasında qiymətli kağızlar bazarına, eləcə də beynəlxalq səviyyədə maliyyə bazarları alətlərinə investisiya yatırmaq istəyən müştərilərə vasitəçilik xidmətləri və diler xidmətlərinin göstərilməsindən ibarətdir. Cəmiyyət tərəfindən göstərilən əsas investisiya xidmətləri aşağıdakılardır:

- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə aparılan əməliyyatlarla bağlı müştəri sifarişlərinin qəbul və icra edilməsi;
- fərdi investorların portfelinin idarə edilməsi;
- investisiya məsləhətlərinin verilməsi;
- qiymətli kağızların öhdəlik götürmədən yerləşdirilməsi və anderraytinqi;
- qiymətli kağızların öhdəlik götürməklə yerləşdirilməsi və anderraytinqi;
- mərkəzi depozitarın və fond birjasının üzvü qismində öz hesabına qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə əməliyyatlar aparılması;
- marja ticarəti.

Cəmiyyət tərəfindən göstərilən yardımçı investisiya xidmətləri aşağıdakılardır:

- müştərisinin qiymətli kağızlar hesablarının idarə edilməsi, o cümlədən qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin öhdəliklərlə yüklənməsi ilə bağlı əməliyyatların həyata keçirilməsi;;
- investorlara qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə həyata keçirdiyi əqdlərin bağlanması üçün kredit və ya digər formada borc verilməsi;
- qiymətli kağızlar və ya törəmə maliyyə alətləri ilə bağlı investisiya tədqiqatı və maliyyə təhlilinin aparılması;
- təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı xidmətinin həyata keçirilməsi;
- əsas investisiya xidmətlərinin (əməliyyatlarının) həyata keçirilməsi ilə bağlı xarici valyuta mübadiləsi.

31 dekabr 2023-cü il tarixinə Cəmiyyətin işçilərinin sayı 9 nəfər (31 dekabr 2022-ci il: 9 nəfər) olmuşdur.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin mülkiyyət strukturu aşağıdakı kimi olmuşdur:

| **Səhmdar** | **31 dekabr 2023-cü il** | **31 dekabr 2022-ci il** |
|---|---|---|
| Cəfərov Ruslan Nazim | 100% | - |
| "Bank BTB" ASC | - | 100% |
| **Cəmi** | **100%** | **100%** |

**Cəmiyyətin hüquqi ünvanı və fəaliyyət göstərdiyi yer:**

Cəmiyyətin hüquqi ünvanı Yusif Səfərov 27, Xətai rayonu, Bakı şəhəri, Azərbaycan Respublikasıdır.

Cəmiyyətin faktiki və fəaliyyət göstərdiyi ünvanı Xocalı prospekti 37, Dəmirçi plaza 22-ci mərtəbə, Bakı şəhəri, Azərbaycan Respublikasıdır.

## 2. Cəmiyyətin əməliyyat mühiti

Azərbaycan iqtisadiyyatında inkişaf etməkdə olan bazarlara xas müəyyən xüsusiyyətlər müşahidə edilir. Azərbaycan iqtisadiyyatının mövcud və gələcək artımı və dayanıqlığı hökumətin həyata keçirdiyi fiskal və monetar tədbirlərin effektivliyindən, eləcə də xam neftin qiymətlərindən və Azərbaycan manatının sabitliyindən əhəmiyyətli dərəcədə asılıdır.

2023-cü ildə ölkədə 123,0 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,1 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,7 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 3,7 faiz artmışdır.

2022-ci ilə qəbul edilmiş dövlət büdcəsində neft transferlərinin əvvəlki illə müqayisədə artması milli valyutanın məzənnəsinin dayanıqlığını dəstəkləyəcəkdir. Digər tərəfdən anti-inflyasiya xarakterli pul siyasəti daxili tələbin monetar amillərin tarazlı səviyyədə qorunmasına xidmət edəcəkdir. Müvəqqəti xarici və daxili xərc amillərinin qiymətlərə təsiri neytrallaşdıqca, balanslaşdırıcı rol oynayan amonetar amillərin inflyasiyaya azaldıcı təsirləri gücləanəcək.

Ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə ciddi irəliləyişlərə nail olunmuş, əhalinin sosial müdafiəsinin gücləndirilməsi,sosial ödənişlərin,əməkhaqlarının artırılması istiqamətində ardıcıl addımlar atılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 05 yanvar tarixli 2965 nömrəli Sərəncamının icrası ilə əlaqədar minimum aylıq əməkhaqqının məbləği 2023-cü il yanvarın 1-dən 345 manat müəyyən edilmişdir.

2023-cü ilin avqust ayında "Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycan iqtisadiyyatı üçün reytinqini "Ba1" səviyyəsində təsdiqləyib və proqnoz sabit olaraq qalıb.

Siyasi və iqtisadi vəziyyətin mövcud təsirlərini proqnozlaşdırmaq çətindir, lakin bunun Azərbaycan iqtisadiyyatına təsiri daha çox ola bilər və bu da dövlət maliyyəsinin pisləşməsinə, maliyyə bazarlarının qeyri-sabitliyinə, kapital bazarlarında qeyri-likvidliyə, inflyasiyanın artmasına və milli valyutanın əsas xarici valyutalara nisbətdə dəyərdən düşməsinə gətirib çıxara bilər.

Mövcud iqtisadi vəziyyətin gələcək təsirlərini və yuxarıda qeyd olunan tədbirləri qabaqcadan proqnozlaşdırmaq nisbətən mürəkkəb olduğuna görə rəhbərliyin iqtisadi mühitlə bağlı cari proqnozları və təxminləri faktiki nəticələrdən fərqli ola bilər.

Gözlənilən kredit zərərinin ("GKZ") qiymətləndirilməsi məqsədilə, Cəmiyyət makroiqtisadi dəyişənlər üzrə proqnozlar daxil olmaqla, dəstəkləyici gələcək məlumatlardan istifadə edir. Hər bir iqtisadi proqnozda olduğu kimi, onların reallaşması ilə bağlı fərziyyələr və ehtimallar yüksək dərəcəli qeyri-müəyyənliklə əlaqəlidir və buna görə də faktiki nəticələr proqnozlaşdırılan nəticələrdən əhəmiyyətli dərəcədə fərqlənə bilər.

Cəmiyyətin rəhbərliyi mövcud iqtisadi mühitdə baş verən prosesləri müşahidə edir və Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətinin dayanıqlığını və inkişafını təmin etmək üçün qabaqlayıcı tədbirlər görür.

## 3. Əhəmiyyətli uçot siyasətləri

### Uyğunluq haqqında bəyanat

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

## 3. Əhəmiyyətli uçot siyasətləri (davamı)

### Fasiləsizlik prinsipi

Bu maliyyə hesabatları Cəmiyyətin fasiləsizlik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik Azərbaycan Respublikasının qanunlarına və qaydalarına müvafiq olaraq Cəmiyyəti ləğv etmək, kommersiya fəaliyyətini dayandırmaq və ya kreditorlardan müdafiə olunmaq yollarını axtarmaq niyyəti və ya zərurəti olmadan Cəmiyyətin yaxın gələcəkdə fəaliyyətini davam etdirəcəyini düşünür. Müvafiq olaraq, aktivlər və öhdəliklər normal şərtlər altında Cəmiyyətin aktivlərini reallaşdıracağı və öhdəliklərini yerinə yetirəcəyi əsaslar üzrə qeydə alınır. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Cəmiyyətin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipi üzrə təxminlərə dair Rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisə və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

### Təqdimatın digər əsasları

Bu maliyyə hesabatları Cəmiyyətin həm də funksional valyutası olan Azərbaycan Manatı ("AZN") ilə təqdim edilmişdir. Aşağıdakı uçot siyasətlərində açıqlanan hallar istisna olmaqla, bu maliyyə hesabatları tarixi dəyər prinsipinə əsasən hazırlanmışdır, məsələn, investisiya qiymətli kağızları digər məcmu gəlir vasitəsilə ədalətli dəyərlə qiymətləndirilmişdir.

Cəmiyyət mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-yə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

### Gəlirlərin tanınması

Səhmlər və ya digər qiymətli kağızların alınması, yaxud biznes müəssisələrinin alınması və ya satılması zamanı aparılan danışıqlar, verilən məsləhətlər, təlimlər və ya üçüncü tərəflər üçün danışıqlarda iştirak etmək nəticəsində yaranmış və əsas əməliyyatın icrası zamanı qazanılmış komissiyalar və haqlar icra başa çatdığı zaman uçota alınır.
Bütün borc alətləri üzrə faiz gəlirləri mənfəət və ya zərər haqqında hesabatda effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə qeydə alınır. Bu metoda əsasən, faiz gəlirləri müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

### Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya olunmuş dəyərlə qeydə alınır. Həmin qiymətləndirmə üsulları aşağıda əks edirilir;

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir.

Ədalətli dəyər, ən yaxşı olaraq, fəal bazarda alınıb-satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında, davamlı olaraq, məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

**3. Əhəmiyyətli uçot siyasətləri (davamı)**

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları (davamı)**

Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir:

(i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir.
(ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər) və ya dolayısı ilə (yəni qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir.
(iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc alınmış vəsaitlər üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz dərəcəsi metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması üsuludur.

Effektiv faiz dərəcəsi təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdıran dəqiq dərəcədir.

### 3. Əhəmiyyətli uçot siyasətləri (davamı)

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları (davamı)**

Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir.

İlkin dəyərin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin ayrılmaz tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

**Maliyyə alətlərinin ilkin tanınması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilk öncə, ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür. İlkin tanınma zamanı ədalətli dəyər, ən yaxşı olaraq, əməliyyat qiyməti ilə təsdiq edilir. İlkin tanınma zamanı mənfəət və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır və bu eyni maliyyə aləti ilə aparılan müşahidə oluna bilən cari bazar əməliyyatları və ya giriş məlumatları yalnız müşahidə oluna bilən bazar məlumatlarını özündə əks etdirən qiymətləndirmə üsulları ilə təsdiq oluna bilər.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb-satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

**Maliyyə alətlərinin təsnifatı**

Maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- aktiv müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Borc aləti aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZƏD kimi müəyyən edilmədikdə, DMGƏD-də ölçülür:

- aktiv həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Cəmiyyət ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZƏD-də ölçülmüş kimi təsnif edilir.

Bununla yanaşı, ilkin tanınma zamanı Cəmiyyət amortizasiya olunmuş dəyərində və ya DMGƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**3. Əhəmiyyətli uçot siyasətləri (davamı)**

**Biznes modelinin qiymətləndirilməsi**

Cəmiyyət maliyyə aktivinin portfel səviyyəsində saxlandığı biznes modelinin məqsədini qiymətləndirəcək, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün şəkildə əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, xüsusilə rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəricilərinin necə qiymətləndirilməsi və Cəmiyyətin rəhbərliyinə necə çatdırılması;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerlərinin necə mükafatlandırılması – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Cəmiyyətin məqsədinə necə nail olmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məsələn, likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Cəmiyyət alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edəcək. Qiymətləndirmə zamanı Cəmiyyət aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Cəmiyyətin iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər, məsələn, reqressiz aktivlər; və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məsələn, faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi.

**Maliyyə alətlərinin yenidən təsnifi**

Maliyyə aktivləri Cəmiyyətin maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

## 3. Əhəmiyyətli uçot siyasətləri (davamı)

**Maliyyə alətlərinin dəyərsizləşməsi – GKZ üzrə kredit zərəri ehtiyatı**

Cəmiyyət AD və DMGƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə GKZ-ni perspektiv əsasda ölçür. Cəmiyyət GKZ-ni ölçür və hər hesabat dövrünə kredit zərəri üzrə ehtiyatı tanıyır.

GKZ-nin ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimal olunan məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmüş borc alınmış vəsaitlər GKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üçün, GKZ üzrə ayrı ehtiyat, maliyyə vəziyyəti haqqında hesabatında öhdəlik olaraq tanınır. DMGƏD-də borc alətləri üçün GKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya olunmuş dəyərindəki dəyişiklik, mənfəət və ya zərər və digər balans dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər DMGƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentlərinə nağd pul vəsaitləri və digər qısa ödəniş müddətinə, yəni əldə olunduğu tarixdən üç ay və ya daha az ödəniş müddətinə malik olan yüksək likvidlik dərəcəsinə malik qoyuluşlar daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınırlar, çünki: (i) onlar müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təqdim edir və (ii) onlar MZƏD olaraq təyin edilmir.

İstifadəsi məhdudlaşdırılmış qalıqlar pul vəsaitlərinin hərəkəti haqqında hesabatın məqsədləri üçün pul vəsaitləri və onların ekvivalentləri kateqoriyasına daxil edilməmişdir. Hesabat tarixindən sonra ən az on iki ay ərzində dəyişdirilmək və ya öhdəliyin əvəzini ödəmək məqsədləri ilə istifadəsi məhdudlaşdırılmış qalıqlar digər cari aktivlərə daxil edilir.

**Borc qiymətli kağızları üzrə investisiyalar**

Biznes modeli və pul vəsaitlərinin hərəkəti xüsusiyyətlərinə əsasən, Cəmiyyət borc qiymətli kağızlarına qoyduğu investisiyaları AD, DMGƏD və ya MZƏD kateqoriyaları üzrə təsnifləşdirir.

Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edirsə və əgər onlar mühasibat uçotu mühitinin uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaltmaq üçün könüllü olaraq MZƏD-də təyin edilmirlərsə, belə investisiyalar AD-də təsnifləşdirilir.

**3. Əhəmiyyətli uçot siyasətləri (davamı)**

**Borc qiymətli kağızları üzrə investisiyalar (davamı)**

Borc qiymətli kağızları müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması və satılması üçün saxlanılırsa və bu pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edirsə və əgər onlar MZƏD-də təyin edilmirlərsə, DMGƏD-də təsnifləşdirilirlər. Bu aktivlər üzrə faiz gəlirləri effektiv faiz dərəcəsi metodundan istifadə edərək hesablanır və mənfəət və ya zərərdə tanınır. Gözlənilən kredit zərəri modelindən istifadə etməklə ehtimal olunan dəyərsizləşmə ehtiyatı il üzrə mənfəət və ya zərərdə tanınır. Balans dəyəri üzrə olan bütün digər dəyişikliklər DMG-də tanınır. Borc qiymətli kağızlarının tanınması dayandırılan zaman, əvvəllər DMG-də tanınan məcmu gəlir və ya zərərlər DMG-dən çıxarılaraq mənfəət və ya zərər hesablarında təsnifləşdirilir.

Borc qiymətli kağızları üzrə investisiyalar AD və ya DMGƏD-ə dair meyarlara cavab vermirsə, MZƏD-də təsnifləşdirilir. Bu opsiyanın tətbiqi müxtəlif mühasibat uçotu əsasları üzrə tanınan və ya ölçülən maliyyə aktivləri və maliyyə öhdəlikləri arasındakı mühasibat uçotu uyğunsuzluğunu əhəmiyyətli dərəcədə azaldırsa, Cəmiyyət ilkin tanınma zamanı MZƏD-də olan borc qiymətli kağızları üzrə investisiyaları qəti şəkildə təyin edə bilər.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəliyinin tanınması, bu öhdəlik üzrə ödənişlər yerinə yetirildikdə, öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni borc verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlərlə başqa maliyyə öhdəliyi ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirildikdə, belə bir mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq balans dəyərində olan fərq mənfəət və ya zərərdə tanınır.

**Yenidən satın alınmış müqavilələr üzrə borc alınmış vəsaitlər**

Cəmiyyət mülkiyyət riskləri və mükafatlarının hamısını özündə saxladığından, müəyyən edilmiş gələcək tarixdə Repo müqavilələri əsasında satılan qiymətli kağızlar, maliyyə vəziyyəti haqqında hesabatdan çıxarılmır. Alınmış müvafiq pul vəsaitləri, əməliyyatın iqtisadi mahiyyətini Cəmiyyətə veriləcək kredit kimi əks etdirən Repo müqavilələri daxilində borc alınmış vəsaitlər kimi yığılmış faizlər də daxil olmaqla, geri qaytarılması nəzərdə tutulan müvafiq öhdəliyi olan bir aktiv kimi maliyyə vəziyyəti haqqında hesabatda tanınır. Satış və yenidən satın alma qiymətləri arasındakı fərq faiz xərcləri kimi qəbul edilir və effektiv faiz dərəcəsindən istifadə edərək müqavilə müddəti ərzində hesablanır.

Qarşı tərəfin qiymətli kağızları satmaq və ya yenidən girov qoymaq hüququ olduqda, Cəmiyyət bu qiymətli kağızları, maliyyə vəziyyəti haqqında hesabatında, müvafiq olaraq, ticarət məqsədilə təminat olaraq girov qoyulmuş maliyyə aktivi və ya toplanmaq və ya satmaq məqsədilə təminat olaraq qoyulmuş maliyyə investisiyası kateqoriyasında yenidən təsnifləşdirir.

Əksinə, müəyyən edilmiş gələcək tarixdə yenidən satış üçün nəzərdə tutulan müqavilələr əsasında satınalınmış qiymətli kağızlar maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Hesablanmış faizlər də daxil olmaqla ödənilmiş kompensasiya, əməliyyatın iqtisadi mahiyyətini Cəmiyyət tərəfindən kredit kimi əks etdirən əks Repo müqavilələri əsasında debitor borcları daxilində maliyyə vəziyyəti haqqında hesabatda uçota alınır. Alqı-satqı qiymətləri arasındakı fərq xalis faiz gəlirində uçota alınır və EFD-dən istifadə etməklə müqavilənin qüvvədə olduğu müddət ərzində hesablanır.

**3. Əhəmiyyətli uçot siyasətləri (davamı)**

**Yenidən satın alınmış müqavilələr üzrə borc alınmış vəsaitlər (davamı)**

Yenidən satış üçün nəzərdə tutulan müqavilələr əsasında satınalınmış qiymətli kağızlar sonradan üçüncü şəxslərə satılarsa, qiymətli kağızların qaytarılması öhdəliyi ticarət üçün saxlanılan maliyyə öhdəliklərində qısa satış kimi qeydə alınır və xalis ticarət gəlirinə daxil edilən hər hansı gəlir və ya zərərlə ədalətli dəyərdə ölçülür.

**İcarələr**

Müqavilə bağlanarkən, Cəmiyyət müqavilənin icarə olduğunu və ya icarə elementləri ehtiva etdiyini qiymətləndirir. Bu hal, müqavilənin müəyyən bir ödəniş müqabilində müəyyən edilmiş aktivin təyin edilmiş bir müddət ərzində istifadəsinə nəzarət etmək hüququnun əldə edilməsi zamanı baş verir.

**Cəmiyyət icarəçi qismində**

Cəmiyyət qısamüddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanıma və ölçmə yanaşmasını tətbiq edir. Cəmiyyət icarə ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini, eləcə də əsas aktivlərdən istifadə hüququ təmin edən istifadə hüququ olan aktivləri tanıyır.

**İstifadə hüququ olan aktivlər**

Cəmiyyət istifadə hüququ olan aktivləri icarənin başlanğıc tarixində tanıyır (əsas aktivin istifadə üçün mövcud olduğu tarix). İstifadə hüququ olan aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. İstifadə hüququ olan aktivlərin dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlama tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. İstifadə hüququ olan aktivlər ən qısa icarə müddəti ərzində düz xətt əsasında amortizasiya olunur.

İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Cəmiyyətə keçirsə və ya dəyəri bir alış opsiyasının həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı ömrü istifadə olunmaqla hesablanır. İstifadə hüququ olan aktivlər də dəyərsizləşməyə məruz qalır.

**İcarə öhdəlikləri**

İcarənin başlanğıc tarixində Cəmiyyət, icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə, həmçinin Cəmiyyət tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Cəmiyyətin ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Cəmiyyət icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin balans dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

**3. Əhəmiyyətli uçot siyasətləri (davamı)**

**Əmlak və avadanlıqlar**

Əmlak və avadanlıqlar yığılmış amortizasiya və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

Hər hesabat dövrünün sonunda Cəmiyyət əmlak və avadanlıqların dəyərsizləşməsinin hər hansı bir göstəricisinin olub-olmadığını qiymətləndirir. Əgər belə bir göstərici mövcuddursa, Cəmiyyət, satış xərcləri çıxılmaqla aktivin ədalətli dəyəri və onun istifadə dəyərinin ən yüksək olduğu kimi müəyyən edilən, bərpa edilə bilən məbləği qiymətləndirir. Əmlak və avadanlığın balans dəyəri onların təxmin edilən bərpa edilə bilən dəyərindən çox olduqda, onların bərpa edilə bilən dəyərinə qədər silinir və fərq mənfəət və ya zərər haqqında hesabatda dəyərsizləşmə zərəri kimi əks etdirilir.

Əmlak və avadanlıqların satışından əldə edilən gəlirlər və zərərlər onların balans dəyərinə əsasən müəyyən edilir və mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda gəlir/(zərər) kimi əks etdirilir.

Təmir və mühafizə xərcləri baş verdikdə onlar mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatda hesab edilir.

Köhnəlmə düz xətt metodundan istifadə etməklə aktivlərin faydalı istismar müddəti ərzində qalıq dəyərləri çıxılmaqla ilkin dəyərin silinməsi üçün tanınır. Faydalı istismar müddəti təxminləri, qalıq dəyərləri və köhnəlmə metodları hər bir hesabat tarixinin sonunda yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı təxmini istismar müddəti tətbiq edilir:

| | |
|---|---|
| Mebel və qurğular | 25% |
| Kompüter avadanlıqları | 25% |
| İstifadə hüququ olan aktivlər | Əsas icarə müddəti ərzində və ya aktivin istifadə müddəti |

Silindikdə və ya istifadəsinin davam etdirilməsi zamanı gələcəkdə iqtisadi faydanın əldə edilməsi təxmin edilmədikdə əmlak və avadanlıqların tanınmasına xitam verilir. Əmlak və avadanlığın tanınmasına xitam verilməsi nəticəsində yaranan gəlir və zərərlər satış nəticəsində əldə edilən vəsaitlərlə aktivin balans dəyəri arasında olan fərq kimi hesablanır və dərhal mənfəət və zərər hesabında tanınır.

**Qeyri-maddi aktivlər**

Cəmiyyətin bütün qeyri-maddi aktivlərinin qeyri-müəyyən faydalı iqtisadi ömürləri mövcuddur və buraya əsasən broker fəaliyyəti üçün əldə olunmuş lisenziyalar və qiymətli kağızlar üzrə ticarət ilə bağlı digər fəaliyyətlər daxildir.

Ayrıca satın alınmış və müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər yığılmış amortizasiya və ehtimal edilən dəyər azalmaları üzrə ehtiyatlar çıxılmaqla maliyyə vəziyyəti hesabatında tarixi dəyəri ilə tanınır. Amortizasiya qeyri-maddi aktivlərin təxmin edilən faydalı ömrü ərzində düz xətt metodu ilə hesablanır. Faydalı ömür təxminləri və amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq tətbiq edilir. Ayrıca satın alınmış və qeyri-müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər isə maya dəyərindən dəyərsizləşmə zərərlərinin məbləği çıxıldıqdan sonra alınan məbləğdə tanınır.

Hər bir hesabat dövrünün sonunda Cəmiyyət öz qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə onların balans dəyərlərini təhlil edir. Əgər belə hal mövcud olarsa, belə aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə bərpa edilə bilən dəyərin təyin edilməsi mümkün olmadıqda Cəmiyyət aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin bərpa edilə bilən dəyərini təhlil edir.

**3. Əhəmiyyətli uçot siyasətləri (davamı)**

**Qeyri-maddi aktivlər (davamı)**

Əgər aktiv (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) üzrə bərpa edilə bilən dəyər aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) balans dəyərindən azdırsa, onun balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır. Müvafiq aktiv yenidən qiymətləndirilmiş dəyərlə qeydə alınmazsa, dəyərsizləşmə zərəri dərhal mənfəət və zərər hesablarında tanınır, bu halda dəyərsizləşmə zərəri yenidən qiymətləndirmənin azalması kimi nəzərə alınır.

Dəyərsizləşmə zərərlərinə səbəb olan hallar növbəti dövrlərdə aradan qalxdıqda aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) balans dəyəri onun bərpa edilə bilən dəyərinin yenidən təyin edilmiş məbləğinə qədər artırılır, amma yeni təyin edilmiş balans dəyəri aktivin (və ya aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidinin) keçmiş dövrlərdə dəyərsizləşmə zərərlərinin tanınmasından öncə mövcud olan balans dəyərindən daha çox ola bilməz. Dəyərsizləşmə zərərlərinin geri qaytarılması dərhal mənfəət və zərər hesablarında tanınır. Aktiv, yenidən qiymətləndirmə metoduna görə uçota alındıqda qalıq dəyərinin yüksəlməsindən yaranan fərq yenidən qiymətləndirmə nəticəsində dəyərin artması kimi tanınır.

**Vergiqoyma**

Mənfəət vergisi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Məcmu gəlir haqqında hesabatdakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Cəmiyyətin cari mənfəət vergisi xərci, hesabat dövrünün sonunda qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun balans dəyərləri ilə onların vergiyə uyğun balans dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq vəsaitlər əsasında hesablanır və bu zaman balans öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə, bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergini hesablayarkən vergi aktivinin reallaşdırılması və ya öhdəliyin ödənilməsi zamanı qüvvədə olan vergi dərəcəsindən istifadə edilməlidir. Birbaşa səhmdar kapitalına təsir edən əməliyyatlar istisna olmaqla, təxirə salınmış vergi xərci və ya gəliri birbaşa məcmu gəlir haqqında hesabatda əks etdirilir. Səhmdar kapitalına təsir edən əməliyyatlarla bağlı təxirə salınmış vergilər də səhmdar kapitalında öz əksini tapır.

Aşağıdakı hallarda təxirə salınmış vergi aktivi və vergi öhdəliyi əvəzləşdirilərək maliyyə vəziyyəti haqqında hesabatda xalis şəkildə təqdim edilə bilər:

- Cəmiyyətin cari mənfəət vergisi aktivini mənfəət vergisi öhdəliyi ilə əvəzləşdirmək üçün qanuni və icrası mümkün olan hüququ mövcud olduqda; və
- Təxirə salınmış mənfəət vergisi aktiv və öhdəliklər bir vergi orqanı tərəfindən qoyulan məbləğlərə aid edildikdə və bu vergilər üzrə öhdəlik eyni müəssisəyə məxsus olduqda.

**3. Əhəmiyyətli uçot siyasətləri (davamı)**

**Vergiqoyma (davamı)**

Azərbaycan Respublikasında fəaliyyət göstərən Cəmiyyətin fəaliyyəti nəticəsində digər vergilər də yaranır. Bu vergilər əməliyyat xərclərinin bir hissəsi kimi tanınır və məcmu gəlir haqqında hesabata daxil edilir.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, Cəmiyyət işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Bu cür ayırmaları hesablayarkən təqaüd sisteminin göstərişlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutulan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər Dövlət Sosial Müdafiə Fondu tərəfindən yerinə yetirilir.

Cəmiyyət Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Cəmiyyətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Əmək haqları**

Əmək haqları, məvaciblər, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və bülletenlər üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır.

**Şərti öhdəliklər və aktivlər**

Şərti öhdəliklər maliyyə vəziyyəti haqqında hesabatda tanınmır, amma bu öhdəliklərlə bağlı pul vəsaitlərinin ödənilməsinin ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir. Şərti aktivlər maliyyə vəziyyəti haqqındahesabatda tanınmır, amma belə aktivlərlə bağlı iqtisadi mənfəətlərin alınması ehtimalı çox az olduğu hallar istisna olmaqla qalan hallarda hesabatlarda açıqlamalar verilir.

**Nizamnamə kapitalı**

Adi səhmlər kapital bölümündə təsnifləşdirilir. Adi səhmlərin yerləşdirilməsi ilə əlaqədar olan birbaşa əlavə xərclər bütün vergi təsirləri istisna olmaqla kapitalın azaldılması kimi uçota alınır. Adi səhmər üzrə ödənilən dividendlər kapital bölümündə elan olunduğu dövrdə azalma kimi təqdim edilir.

**Xarici valyuta əməliyyatları**

Cəmiyyətin funksional valyutası fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir. Cəmiyyətin funksional valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Xarici valyutada olan monetar aktiv və öhdəliklər, hesabat tarixində mövcud olan ARMB-nin valyuta məzənnəsinə uyğun olaraq Azərbaycan Manatına çevrilir. Xarici valyutada aparılan əməliyyatlar isə əməliyyat tarixinə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq manat ekvivalentinə çevrilir. Bu çevrilmələr zamanı yaranan gəlir və xərclər mənfəət və zərər hesablarında xarici valyuta ilə əməliyyatlar üzrə xalis gəlirlər/ (zərərlər) sətrində göstərilir.

## 3. Əhəmiyyətli uçot siyasətləri (davamı)

### Xarici valyuta məzənnələri

Maliyyə hesabatlarının hazırlanması zamanı Cəmiyyət tərəfindən istifadə edilən hesabat tarixinə valyuta məzənnələri aşağıdakı kimi olmuşdur:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| ABŞ dolları/ AZN | 1.7000 | 1.7000 |
| Avro/ AZN | 1.8766 | 1.8114 |

## 4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli uçot təxminləri və fərziyyələr

Cəmiyyət növbəti maliyyə dövrü ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin qalıq dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb ola biləcək təxminlərə aşağıdakılar daxildir:

### Biznes modelinin qiymətləndirilməsi

Biznes modeli maliyyə aktivinin təsnifləşdirilməsini təyin edən amildir. Rəhbərlik biznes modellərinin dəyərləndirilməsi zamanı maliyyə alətləri üzrə birləşdirmə və portfelə aid etmə səviyyəsini təyin edərkən mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını dəyərləndirərkən Cəmiyyətin rəhbərliyi bu satışların müntəzəmliyi, zamanı və dəyəri barədə tarixi məlumatları, eləcə də satışın səbəbləri və gələcək satışlarla bağlı proqnozları nəzərə alır. Kreditin pisləşməsi ilə əlaqədar potensial itkilərin minimal həddə salınması ilə bağlı həyata keçirilən satış əməliyyatları "toplamaq üçün saxlanılma" biznes modelinin parametrlərinə uyğun gəlir. Alətin kredit riskinin idarə olunması ilə bağlı olmayan, müddəti bitməmiş həyata keçirilən digər satışlar da, fərdi və kollektiv qaydada müntəzəm olmadıqda və dəyər olaraq əhəmiyyət kəsb etmədikdə "toplamaq üçün saxlanılma" biznes modelinin çərçivəsində dəyərləndirilir.

Cəmiyyətin rəhbərliyi satış əməliyyatlarının əhəmiyyətlilik səviyyəsini bu satışların dəyərinin biznes modeli üzrə qiymətləndirilən portfelin dəyərinə olan nisbəti şəklində həmin portfelin orta müddəti üzrə təhlil edir. Əlavə olaraq, yalnız stressli vəziyyətlərdə və ya Cəmiyyətin nəzarətindən kənar olan, təkrarlanmayan və Cəmiyyət tərəfindən gözlənilməyən ayrıca bir hadisəyə cavab məqsədilə həyata keçirilməsi güman edilən satış əməliyyatları biznes modelinin məqsədləri üçün təsadüfi sayılır və müvafiq maliyyə alətlərinin təsnifləşdirilməsi prosesinə təsir göstərmir.

"Toplamaq üçün saxlanılma və satış" biznes modeli dedikdə, aktivlərin əsasən nağd vəsaitlərin toplanılması üçün saxlanılması ehtiva edilir, yalnız bu biznes modelinin məqsədlərinə nail olmaq üçün likvidlik ehtiyacının idarə olunması, müəyyən bir gəlir göstəricilərinə nail olunması və ya maliyyə aktivlərinin müddətlərinin bu aktivləri maliyyələşdirmək üçün istifadə edilən maliyyə öhdəliklərinin müddətlərinə uyğunlaşdırılması kimi bir sıra satış əməliyyatları da model çərçivəsində nəzərə alınır.

Qalıq kateqoriyası elə maliyyə aktivləri portfellərindən ibarətdir ki, nağd vəsaitlərin reallaşdırılmasının əsas təyinatı satış vasitəsilə, məsələn ticarət məqsədilə satışın elementlərinin açıq şəkildə nəzərə çarpan olduğu hallar üçün nəzərdə tutulmuşdur. . Müqavilə üzrə pul vəsaitlərinin toplanması bu biznes modeli üçün çox vaxt təsadüfi olur.

**4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli uçot təxminləri və fərziyyələr (davamı)**

**Pul vəsaitlərinin axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının dəyərləndirilməsi ("YƏMFÖ")**

Nağd vəsaitlər axınının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olmasının təyin edilməsi mülahizələrdən istifadəni tələb edir. Pulun zaman dəyəri elementi müəyyən hallarda, məsələn müqavilə üzrə faiz dərəcəsi dövri olaraq dəyişdirildiyi, amma bu dəyişikliklərin tezliyi borc aləti üzrə nəzərdə tutulan əsas faiz dərəcəsi göstəricisinə uyğun olmadığı hallarda dəyişdirilə bilər. Buna misal olaraq faizləri üç aylıq banklararası faiz dərəcəsinə uyğun olaraq ödənilən, yalnız faiz dərəcəsinin hər ay düzəldildiyi maliyyə alətlərini göstərmək olar. Pulun zaman dəyərinin dəyişdirilməsinin təsiri müvafiq alət üzrə nağd pul vəsaitləri axınının YƏMFÖ xarakteli bənzər maliyyə aləti üzrə nağd pul vəsaitləri axını ilə müqayisə edilərək dəyərləndirilir. Dəyərləndirmə məntiqli görünən bütün mümkün ssenarilər üçün, o cümlədən maliyyə bazarlarında baş verməsi mümkün olan maliyyə stresi vəziyyətləri üçün aparılmışdır. Nağd pul vəsaitləri ilə bağlı yaranan ssenarinin bənzər alətlər üzrə mövcud olan göstəricilərdən fərqli olduğu hallarda, dəyərləndirilən alət üzrə yaranan nağd pul vəsaitləri YƏMFÖ olaraq nəzərə alınmır və bu alət MZƏD maliyyə aləti olaraq təsnifləşdirilir.

Cəmiyyətin rəhbərliyi müqavilə üzrə nəzərdə tutulan nağd pul vəsaitlərinin axınını dəyişdirmək qabiliyyətinə malik olan müqavilə şərtlərini təyin etmiş və nəzərə almışdır. Kredit sazişinin müddəalarına görə vaxtından öncə ödənişlərin mümkün olması və bu ödənişlərin əsas məbləğ və hesablanmış faizlərlə, eləcə də öncədən ödənişlə bağlı müştəridən alınmalı olan haqq və komissiyalarla bağlı olması halında YƏMFÖ üzrə kriteriyalar yerinə yetirilmiş sayılır. Aktiv üzrə əsas məbləğə ilkin tanınma zamanı mövcud olan ədalətli dəyərlə sonrakı dövrlərdə əsas məbləğ üzrə ödənişlər (yəni effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz ödənişləri nəzərə alınmadan yerdə qalan məbləğ) arasındakı fərq aid edilir. Bu prinsipə istisna olaraq standart həm də müəyyən ilkin ödəmə xüsusiyyətlərinə malik olan və aşağıdakı YƏMFÖ şərtlərinə cavab verən alətlərin də nəzərə alınmasına icazə verir: (i) aktiv ilkin olaraq mükafat və ya diskontla hazırlanmışdır, (ii) ilkin ödəniş məbləği müqavilə üzrə əsas məbləği və hesablanmış faizləri və müqavilənin vaxtından əvvəl ləğvi üçün ağlabatan əlavə kompensasiyanı əks etdirir və (iii) öncədən ödəniş imkanı yaradan müddəanın ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətli sayılmır.

**Cari vergilər**

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyində müxtəlif şərhlər edilir və dəyişikliklər tez-tez baş verir.

Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq ediləcək səlahiyyətli vergi orqanının nümayəndələri tərəfindən edilmiş vergi qanunvericiliyinə aid şərhlər rəhbərliyin fikirləri ilə uzlaşmaya bilər. Nəticədə, səlahiyyətli vergi orqanının nümayəndələri əməliyyatlara etiraz edə bilər və Cəmiyyətə əhəmiyyətli dərəcədə əlavə vergilər, cərimələr və faizlər təyin edilə bilər. Müvafiq olaraq, vergi və gömrük qurumları Cəmiyyətin fəaliyyətinin nəzərdən keçiriləcəyi ildən əvvəlki üç il ərzində vergi öhdəliklərini nəzərdən keçirə bilərlər. Cəmiyyətin fəaliyyətinin nəzərdən keçirilməsi müəyyən şərtlər çərçivəsində daha uzun müddətləri də əhatə edə bilər.

**İcarə öhdəliklərinin qiymətləndirilməsi və istifadə hüququ olan aktivlər**

16 saylı MHBS-in tətbiqi istifadə hüququ olan aktivlər və icarə öhdəliklərinə dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Cəmiyyət yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

**5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi**

Cari ildə Cəmiyyət Beynəlxalq Mühasibat Uçotunun Standartları Şurası (MUBSŞ) və MUBSŞ-in Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2023-cü il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad**

**3 saylı MHBS-yə edilmiş Düzəliş**

2020-ci ilin may ayında MUBSŞ tərəfindən "Müəssisələrin birləşməsi" adlı 3 saylı MHBS-yə düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş "Maliyyə Hesabatlılığının Konseptual Əsasları"na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları"na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı MUBS və ya "Təminatlar" adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial '2 gün' mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-in tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları"na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-in mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır.

**"Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi" adlı 1 saylı MHBS**

**İlkin tətbiq edən törəmə olaraq**

MUBSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr çərçivəsində "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi" adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-yə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir.

**"Maliyyə Alətləri" adlı 9 saylı MHBS**

**Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı.**

MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, MUBSŞ 9 saylı MHBS-yə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcveran tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

**"Sığorta müqavilələri" adlı 17 saylı MHBS**

2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-i əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-i tətbiq etməlidir.

Bu standart Cəmiyyətə şamil edilmir.

## 5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

**Uçot Siyasətinin Açıqlanması**

**1 saylı MUBS və 2 saylı MHBS Metodik Sənədi**

2021-ci ilin fevral ayında MUBSŞ 1 saylı MUBS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi" adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir.

Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

**Uçot təxminlərinin müəyyən edilməsi**

**8 saylı MUBS-ə edilən Düzəlişlər** – 2021-ci ilin fevral ayında MUBSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı MUBS-ə düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər**

**12 saylı MUBS-yə edilən Düzəlişlər**

2021-ci ilin may ayında Şura 12 saylı MUBS-yə uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı MUBS-yə düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

## 6. Pul vəsaitləri və onların ekvivalentləri

Cəmiyyətin pul vəsaitləri və onların ekvivalentləri aşağıdakı qalıqlardan ibarətdir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Bank hesabları üzrə qalıqlar | 136,283 | 927,855 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **136,283** | **927,855** |

Cəmiyyətin bank hesabları üzrə qalıqlarına daxil olan 396 AZN, (2022-ci il 10,944 AZN) müştərilər tərəfindən bankda saxlanılan pul qalıqlarından ibarətdir.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə pul vəsaitləri və onların ekvivalentlərinin istifadəsi ilə bağlı bir məhdudiyyət mövcud olmamışdır.

### 6. Pul vəsaitləri və onların ekvivalentləri (davamı)

GKZ hesablamaları məqsədilə, pul vəsaitləri və onların ekvivalentlərinin qalıqları 1-ci Mərhələyə daxil edilmişdir. Bu qalıqlar üzrə GKZ əhəmiyyətsiz məbləği təmsil etdiyindən, Cəmiyyət pul vəsaitləri və onların ekvivalentləri üçün hər hansı bir kredit zərəri ehtiyatını tanımır.

Cəmiyyətin ticarət hesabında olan pul vəsaitlərinə 112,380 AZN məbləğində (2022-ci il 50,704 AZN) xarici investisya platformalarında olan hesablar üzrə qalıqlar daxildir.Qeyd edilən məbləğ Cəmiyyətin pul və pul ekvivalentlərində ayrı klasifikasiya edilmişdir.

### 7. Yüklü olan maliyyə aktivləri

Cəmiyyət Repo borc müqavilələrinin şərtlərinə uyğun olaraq, marjinal ticarət əməliyyatları və qiymətli kağızlarla əməliyyatlar aparan müştərilərdən alınan məbləğin razılaşdırılmış müvafiq faizini yüklü olan maliyyə aktivləri kimi ayırmalıdır. Bank hesabında saxlanılan bu yüklü olan maliyyə aktivləri dərhal və ya ümumi biznes istifadəsi üçün mövcud deyil və pul vəsaitləri və onların ekvivalentlərinə daxil edilmir.

31 dekabr 2023 -cü il tarixinə yüklü olan maliyyə aktivləri 1,000,503 AZN təşkil etmişdir. (2022-ci il: sıfır AZN).

### 8. İnvestisiya qiymətli kağızları

İnvestisiya qiymətli kağızları aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| **DMGƏD-də borc qiymətli kağızları** | | |
| Maliyyə Nazirliyinin xəzinədarlıq hesabları | 1,080,066 | - |
| **Cəmi DMGƏD-də borc qiymətli kağızları** | **1,080,066** | **-** |
| **Amortizasiya olunmuş dəyərdə qiymətli kağızlar və səhmlər** | | |
| Korporativ qiymətli kağızları | - | 410,000 |
| Korporativ səhmlər | - | 48,600 |
| **Cəmi amortizasiya olunmuş dəyərdə qiymətli kağızlar və səhmlər** | **-** | **458,600** |
| **Cəmi investisiya qiymətli kağızları** | **1,080,066** | **458,600** |

İnvestisiya qiymətli kağızlarının bütün qalıqları 1-ci mərhələyə aid edilmişdir.

### 9. İstifadə hüququ olan aktivlər və icarə öhdəlikləri

İstifadə hüququ aktivlərinin balans dəyərinin hərəkəti aşağıdakı kimidir:

| | Ofis sahəsi | Nəqliyyat vasitələri | Cəmi istifadə hüququ olan aktivlər |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il** | - | - | - |
| Əlavələr | 55,908 | 142,800 | 198,708 |
| İl üzrə köhnəlmə xərci | (20,598) | (11,895) | (32,493) |
| **31 dekabr 2023-cü il** | **35,310** | **130,905** | **166,215** |

**9. İstifadə hüququ olan aktivlər və icarə öhdəlikləri (davamı)**

Cəmiyyətin icarə öhdəlikləri aşağıdakı qalıqlardan ibarətdir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Qısamüddətli hissə | 63,126 | - |
| Uzunmüddətli hissə | 58,249 | - |
| **Cəmi icarə öhdəlikləri** | **121,375** | **-** |

İcarə öhdəliklərinin maliyyələşdirmə fəaliyyətindən yaranan müvafiq nağd və nağdsız dəyişikliklərlə tutuşdurulması aşağıda göstərilmişdir:

| | Ofis tikililəri | Nəqliyyat vasitələri | Cəmi icarə öhdəlikləri |
|---|---|---|---|
| **01 yanvar 2023-cü il** | - | - | - |
| **Pul vəsaitlərinin axınları** | | | |
| Əsas məbləğin ödənilməsi | (19,559) | (57,773) | (77,332) |
| Ödənilmiş faiz | (2,645) | (5,988) | (8,633) |
| **Nağdsız dəyişikliklər** | | | |
| Yeni icarələr | 55,907 | 142,800 | 198,707 |
| Faiz xərci | 2,645 | 5,988 | 8,633 |
| **31 dekabr 2023-cü il** | **36,348** | **85,027** | **121,375** |

31 dekabr 2023-cü il tarixinə gələcək minimal icarə ödənişləri aşağıdakı kimi olmuşdur:

| | Minimal icarə ödənişi müddəti | | |
|---|---|---|---|
| | 1 il ərzində | 1 ildən 5 ilə kimi | Cəmi |
| İcarə ödənişləri | 64,814 | 83,645 | 148,459 |
| Maliyyə tutulmaları | (16,345) | (10,739) | (27,084) |
| **31 dekabr 2023-cü il tarixinə xalis cari dəyər** | **48,469** | **72,906** | **121,375** |

23 avqust 2023-cü il tarixində Cəmiyyət ilə "Hermes Finance" ASC arasında ümumi məbləği 142,800 AZN dəyərində olan əmlakın mülkiyyət hüququnun əldə edilməsi ilə bağlı maliyyə lizinq müqaviləsi imzalanmışdır. Qeyd edilən müqavilə əsasında Cəmiyyət 50,000 AZN dəyərində ilkin ödəmə şərti və 36 ay müddətinə illik 20% dərəcəsi ilə 124,156 AZN məbləğində icarə öhdəliyi şərtini öz üzərinə götürmüşdür.

## 10. Əmlak, avadanlıq və qeyri-maddi aktivlər

Əmlak, avadanlıq və qeyri-maddi aktivlər aşağıdakılardan ibarətdir:

| | Kompüter avadanlıqları | Mebel və qurğular | Cəmi əmlak və avadanlıqlar | Qeyri-maddi aktivlər | Cəmi əmlak, avadanlıq və qeyri-maddi aktivlər |
|---|---|---|---|---|---|
| **İlkin dəyərdə** | | | | | |
| **01 yanvar 2022-ci il** | **17,165** | **790** | **17,955** | **96,943** | **114,898** |
| Əlavələr | - | - | - | - | - |
| **31 dekabr 2022-ci il** | **17,165** | **790** | **17,955** | **96,943** | **114,898** |
| Əlavələr | - | 2,738 | 2,738 | - | 2,738 |
| **31 dekabr 2023-cü il** | **17,165** | **3,528** | **20,693** | **96,943** | **117,636** |
| **Yığılmış köhnəlmə** | | | | | |
| **01 yanvar 2022-ci il** | **(6,655)** | **(396)** | **(7,051)** | **(261)** | **(7,312)** |
| İl üzrə köhnəlmə xərci | (1,936) | (99) | (2,035) | (261) | (2,296) |
| **31 dekabr 2022-ci il** | **(8,591)** | **(495)** | **(9,086)** | **(522)** | **(9,608)** |
| İl üzrə köhnəlmə xərci | (2,013) | (164) | (2,177) | (261) | (2,438) |
| **31 dekabr 2023-cü il** | **(10,604)** | **(659)** | **(11,263)** | **(783)** | **(12,046)** |
| **Xalis qalıq dəyəri** | | | | | |
| **01 yanvar 2022-ci il** | **10,510** | **394** | **10,904** | **96,682** | **107,586** |
| **31 dekabr 2022-ci il** | **8,574** | **295** | **8,869** | **96,421** | **105,290** |
| **31 dekabr 2023-cü il** | **6,561** | **2,869** | **9,430** | **96,160** | **105,590** |

Cəmiyyətin qeyri maddi aktivlərinə 60,000 AZN dəyərində Bakı Fond Birjasına birdəfəlik ödənilən üzvlük haqqı daxildir. Qeyd edilən qeyri-maddi aktiv üzrə istifadə müddəti qeyri-məhdud olduğundan amortizasiya hesablanmamışdır. Aktiv üzrə dəyərsizləşmə halları rəhbərlik tərəfindən hesabat dövrünün sonunda yoxlanılmışdır və dəyərsizləşmə baş verməmişdir.

## 11. Digər aktivlər

Digər aktivlər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Xidmətlər üzrə qabaqcadan ödənişlər | 50,912 | 8,277 |
| **Cəmi digər aktivlər** | **50,912** | **8,277** |

## 12. Müştərilərə ödəniləcək vəsaitlər

İl ərzində müştərilər onlayn marjinal ticarətlə məşğul olmaq üçün Cəmiyyətin ABŞ dolları ilə olan bank hesabına əmanət yerləşdirmişlər. Müqaviləyə əsasən, bu əmanətlər tələb üzrə müştəriyə ödənilir.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə müştərilərə ödəniləcək vəsaitlər müvafiq olaraq, 112,380 AZN və 2,258,735 AZN təşkil etmişdir.

Göstərilən xidmətlərə görə ödənişlər üzrə orta kredit müddəti tələb əsasında ödənilir. Müştərilərə ödəniləcək vəsaitlər üzrə qalıqlar üzrə heç bir faiz ödənilmir.

Cəmiyyətin müştərilərə ödəniləcək vəsaitləri üzrə ədalətli dəyər dəyişikliyinin məbləği sıfıra yaxındır. Cəmiyyət müştərilərə ödəniləcək vəsaitlərin təminatı olaraq heç bir girov qoymamışdır.

## 13. Repo müqavilələri əsasında borc alınmış vəsaitlər

Repo müqavilələri əsasında borc alınmış vəsaitlər aşağıdakı əməliyyatlardan ibarətdir:

| | Effektiv faiz dərəcəsi | 31 dekabr 2023-cü il | Effektiv faiz dərəcəsi | 31 dekabr 2022-ci il |
|---|---|---|---|---|
| Qeyri-əlaqəli tərəflər | 5.8%-6.8% | 1,032,000 | - | - |
| **Repo müqavilələri əsasında borc alınmış vəsaitlər** | | **1,032,000** | | **-** |

Maliyyələşdirmə fəaliyyəti üzrə müvafiq nağd və nağdsız dəyişikliklərlə Repo müqavilələri əsasında borc alınmış vəsaitlərin ilin əvvəlinə və sonuna olan məbləğlərinin üzləşdirilməsi aşağıda qeyd olunmuşdur:

| | 2023-cü il |
|---|---|
| **01 yanvar** | - |
| **Pul vəsaitlərinin axınları** | |
| Daxilolmalar | 71,649,000 |
| Edilmiş ödənişlər | (70,617,000) |
| Ödənilmiş faiz | (56,862) |
| **Nağdsız dəyişikliklər** | |
| Faiz xərci | 56,862 |
| **31 dekabr** | **1,032,000** |

## 14. Digər öhdəliklər

Digər öhdəliklər aşağıdakı kimidir:

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| Xidmətlər üzrə kreditor borclar | 52,808 | 77,628 |
| Ödəniləcək vergilər | 4,258 | 8,317 |
| DSMF-yə olan öhdəliklər | 3,615 | 3,556 |
| İşçilərə ödəniləcək vəsaitlər | 2,194 | 2,194 |
| Digər | 639 | 6,107 |
| **Cəmi digər öhdəliklər** | **63,514** | **97,802** |

## 15. Nizamnamə kapitalı

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin mülkiyyət strukturu və nizamnamə kapitalı aşağıdakı kimi olmuşdur:

| | Səhm payı | | Nizamnamə kapitalı | |
|---|---|---|---|---|
| **Səhmdar** | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
| Cəfərov Ruslan Nazim | 100% | - | 350,000 | - |
| "Bank BTB" ASC | - | 100% | - | 1,000,000 |
| **Cəmi** | **100%** | **100%** | **350,000** | **1,000,000** |

## 15. Nizamnamə kapitalı (davamı)

31 dekabr 2022-ci il tarixinə Cəmiyyətin səhmlərinin hər birinin nominal dəyəri 1,000 AZN olan 1,000 səhmdən təşkil olunmuşdur.

16 dekabr 2022-ci il tarixində Cəmiyyətin hüquqi sələfi olan "BTB Kapital İnvestisya Şirkəti" ASC-nin yeganə səhmdarı "Bank BTB" ASC-nin qərarı ilə Cəmiyyətin 1,000 ədəd adi səhminin hər birinin nominal dəyəri 650 AZN azaldılaraq hər səhmin nominal dəyəri 350 AZN təşkil etməklə ümumilikdə Cəmiyyətin nizamnamə kapitalı 350,000 AZN məbləğində müəyyən edilmişdir. Qeyd edilən qərar hesabat dövründən sonrakı tarixdə icra edilmişdir.

16 dekabr 2022-ci il tarixli qərarla Cəmiyyətin ümumilikdə 200,000 AZN dəyərində dividend ödənilməsi müəyyən edilmişdir. Qeyd edilən qərarın 31 dekabr 2023-cü il tarixində başa çatmış dövr ərzində icrası nəzərdə tutulmuşdur.

31 dekabr 2023-cü il tarixinə Cəmiyyətin səhmlərinin hər birinin nominal dəyəri 350 AZN olan 1,000 səhmdən təşkil olunmuşdur.

## 16. Digər gəlirlər

Digər gəlirlərin kateqoriyalar üzrə təhlili aşağdakı kimidir:

| | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Fərdi portfel idarəetmə gəlirləri | 26,384 | 64,272 |
| Anderraytinq xidməti üzrə gəlirlər | 24,750 | 2,552 |
| Maliyyə məsləhət xidməti üzrə gəlirlər | 10,000 | 15,700 |
| Marja ticarət gəliri | - | 24,477 |
| İnvestisiya xidmətinin təşkili üzrə gəlirlər | - | 1,000 |
| Digər | - | 1,617 |
| **Cəmi digər gəlirlər** | **61,134** | **109,618** |

## 17. Haqq və komissiya xərcləri

Cəmiyyətin 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə komissiya xərcləri 272,571 AZN təşkil edir (2022: 280,051 AZN). Komissiya xərcləri Cəmiyyətin səhmlər və digər qiymətli kağızların alınması və satılması əməliyyatlarının aparılması üçün müxtəlif investisiya platformaları tərəfindən tutulan komissiyalardan ibarətdir.

## 18. İşçi heyəti ilə bağlı xərclər

| | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Əmək haqqı xərcləri | (188,159) | (197,894) |
| Sosial sığorta xərcləri | (33,970) | (36,137) |
| **Cəmi işçi xərcləri** | **(222,129)** | **(234,031)** |

## 19. Faiz xərcləri

Cəmiyyətin 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə Cəmiyyətin faiz xərclərinin 56,862 AZN (2022: 1,354 AZN) hissəsini Repo borc müqavilələri əsasında borc alınmış vəsaitlər üzrə faiz xərci, 8,633 AZN (2022: 0 AZN) hissəsini icarə öhdəliyi üzrə faiz xərci təşkil edir.

## 20. Digər əməliyyat və inzibati xərclər

Digər əməliyyat və inzibati xərclər aşağıdakılardan ibarətdir:

| | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| IT xidmətləri | (55,330) | (67,490) |
| Reklam və marketinq xərcləri | (49,094) | (22,760) |
| Agent xərcləri | (46,780) | (2,520) |
| Köhnəlmə və amortizasiya | (34,931) | (2,296) |
| Ofis xərcləri | (29,071) | (11,104) |
| Hüquq xidmətləri | (25,000) | (23,400) |
| Müştəri portfelinin idarə edilməsindən zərər | (14,400) | (12,056) |
| Qısamüddətli icarə xərci | (7,500) | (18,000) |
| Peşəkar xidmət haqqı | (4,720) | (13,430) |
| Ezamiyyə xərcləri | (3,991) | (2,895) |
| Cərimələr və sanksiyalar | (300) | (2,500) |
| Təlim xərcləri | - | (130,400) |
| Digər xərclər | (2,376) | (13,881) |
| **Cəmi digər əməliyyat və inzibati xərclər** | **(273,493)** | **(322,732)** |

## 21. Mənfəət vergisi

Cəmiyyət vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarına və qeydlərinə əsasən hesablayır və bu hesablamalar Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarından fərqlənə bilər.

Cəmiyyət bəzi xərclərin vergi mənfəətindən azaldılmamasına və bəzi gəlirlərin vergidən azad olunmasına görə bəzi daimi vergi fərqləri yaradır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasındakı fərqlərdən yaranmışdır.

## 21. Mənfəət vergisi (davamı)

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə vergi bazasını artıran və azaldan müvəqqəti fərqlər aşağıdakılardır:

| | 31 dekabr 2023-cü il |
|---|---|
| **Vergi bazasını artıran müvəqqəti fərqlər:** | |
| Pul vəsaitləri və onların ekvivalentləri | (94) |
| İstifadə hüququ olan aktivlər | 35,310 |
| Əmlak və avadanlıqlar | 723 |
| Qeyri-maddi aktivlər | 35,856 |
| **Ümumi vergi bazasını artıran müvəqqəti fərqlər:** | **71,795** |
| **Vergi bazasını azaldan müvəqqəti fərqlər:** | |
| İcarə öhdəlikləri | 36,348 |
| Digər öhdəliklər | 16,223 |
| **Ümumi vergi bazasını azaldan müvəqqəti fərqlər** | **52,571** |
| **Xalis vergi bazasını artıran müvəqqəti fərqlər** | **(19,224)** |
| **Yerli vergi dərəcəsi üzrə xalis təxirə salınmış vergi öhdəliyi (2023-cü ildə 20%, 2022-ci ildə 20%)** | **(3,845)** |

| | 31 dekabr 2023-cü il | 31 dekabr 2022-ci il |
|---|---|---|
| **Təxirə salınmış vergi öhdəliyi** | | |
| **İlin əvvəlinə** | **(6,049)** | **(4,612)** |
| Dövr ərzində dəyişikliklər | (3,845) | (1,437) |
| **İlin sonuna** | **(9,894)** | **(6,049)** |

Maliyyə mənfəəti ilə mənfəət vergisi xərci arasında əlaqə 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərində başa çatmış il üzrə aşağıdakı kimi izah edilir:

| | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Mənfəət vergisindən əvvəlki mənfəət | **820,388** | **123,249** |
| Qanunvericiliklə müəyyən edilmiş 20% vergi dərəcəsi ilə | (164,078) | (24,649) |
| -Daimi vergi fərqlərinin təsiri | 518 | 492 |
| **Mənfəət vergisi xərci** | **(163,560)** | **(24,157)** |

Mənfəət vergisi xərci aşağıdakı komponentlərdən ibarətdir:

| | 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| Cari mənfəət vergisi xərci | (159,715) | (22,720) |
| Təxirə salınmış vergi xərci | (3,845) | (1,437) |
| **Mənfəət vergisi xərci** | **(163,560)** | **(24,157)** |

## 22. Təhhüdlər, şərti öhdəliklər və əməliyyat riskləri

### Məhkəmə prosedurları

Vaxtaşırı olaraq və adi fəaliyyət gedişində müştərilər və üçüncü şəxslər tərəfindən Cəmiyyətə qarşı iddialar irəli sürülə bilər. Öz taxminləri, eləcə də həm daxili, həm də xarici peşəkar məsləhətlər əsasında Cəmiyyətin rəhbərliyi hesab edir ki, bu maliyyə hesabatlarında nəzərdə tutulmuş ehtiyatlardan artıq olan iddialarla bağlı hər hansı bir əhəmiyyətli zərər baş verməyəcəkdir.

### Vergi qanunvericiliyi

Cəmiyyətə tətbiq edilən vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatlarına və fəaliyyətinə tətbiq edilən belə qanunvericiliyə dair rəhbərliyin şərhlərinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Azərbaycan Respublikasında baş vermiş son hadisələr əsasında vergi orqanlarının qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilməsi və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilməsi qənaətinə gəlmək olar. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər. Vergi orqanları tərəfindən yoxlama ilindən əvvlki üç təqvim ilinə aid maliyyə dövrləri yoxlanıla bilər.

Qanunvericiliklə müəyyən olunmuş xüsusi hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər. Rəhbərlik hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür və vergi, xarici valyuta və gömrüklə bağlı Cəmiyyətin mövqelərində əhəmiyyətli dəyişikliklər baş verməyəcək.

### Kapital məsrəfləri ilə bağlı öhdəliklər

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə Cəmiyyətin kapital məsrəfləri ilə bağlı əhəmiyyətli müqavilə öhdəlikləri mövcud olmamışdır.

## 23. Maliyyə risklərinin idarə edilməsi

Risklərin idarə edilməsi funksiyası Cəmiyyət tərəfindən maliyyə riskləri (kredit riski, bazar riski, valyuta, faiz riski, likvidlik və coğrafi), əməliyyat riskləri və hüquq riskləri ilə əlaqədar icra edilir. Risklərin idarə edilməsi funksiyasının əsas məqsədi risk sərhədlərini təyin etmək və sonradan risklərin o sərhədlər arasında saxlanılmasını təmin etməkdir. Əməliyyat və hüquq risklərinin idarə edilməsi funksiyaları əməliyyat və hüquq risklərinin azaldılması məqsədilə daxili qayda və prosedurların təmin edilməsini nəzərdə tutur.

### Kredit riski

Bir tərəfin maliyyə aləti üzrə öhdəliklərini yerinə yetirə bilmədiyi zaman və maliyyə zərərləri ilə nəticələnə bilən hallar, kredit riski kimi tanınır. Cəmiyyətin fəaliyyəti üçün əsas risk mənbələri broker şirkətləri və fərdi müştərilərdir.

Yeni bir münasibət yaranarkən broker şirkəti kredit riskinin parametrlərinə uyğun təhlil edilir və təhlil hər altı aydan bir yenilənir (və ya daha tez-tez, məsələn, brokerin korporativ strukturunda dəyişiklik olduqda). Bu broker şirkəti üçün nəzərdə tutulan maksimum məruz edilmə limitləri, sonra idarə heyəti tərəfindən nəzərdən keçirilir və təsdiq edilir. Konsentrasiya riskinin idarə olunmasının bir hissəsi olaraq, Cəmiyyət hər bir aktiv sinfi üçün bir çox brokerlərin saxlanmasını dəstəkləyir. Mümkün olduğu təqdirdə, Cəmiyyət müştərinin mövqeyini qorumaq üçün onun əlavə vəsaitlər təmin etməsi üçün danışıqlar aparır ki, bu da birbaşa kredit riskini azalda bilər.

## 23. Maliyyə risklərinin idarə edilməsi (davamı)

### Marja riski

Cəmiyyət müştəri mənfəət və zərərin müştərinin hesabında müntəzəm olaraq yenilənməsi ilə marjinal ticarət platformasında real vaxt rejimində fəaliyyət göstərir. Marja riski əsasən müştərinin Cəmiyyətə əmanət olaraq qoyduğu cəmi vəsaitlər, yaranmış ticari zərərlərini qarşılamaq üçün yetərli olmadığı zaman yaranır.

Xüsusilə, bazarda əhəmiyyətli, ani hərəkətlər olduqda, yəni ümumi bazar dəyişkənliyi və ya müştərinin açıq mövqeyi olduğu fərdi maliyyə alətinə aid yüksək xüsusi dəyişkənlik mövcud olduğu zaman yarana bilər.

Cəmiyyət marja riskini bir sıra vasitələrlə azaldır, lakin ləğv etmir. Buraya "mövqeni bağlamaq üçün monitorinq" vasitəsilə müştəri mövqeyinə real vaxt rejimində nəzarət edilməsi, müştərilərin müqavilənin bağlanılacağı səviyyənin əvvəlcədən təyin etmək qabiliyyəti ("dayanma" səviyyəsi və "zəmanətli dayanma" səviyyəsi), müxtəlif səviyyəli marjalardan istifadə daxildir.

Bu risk həmçinin müştəri üzrə davamlılıq meyarlarının tətbiq edilməsi vasitəsilə əhəmiyyətli mövqelər üzrə müştərilərdən tələb olunan marjanın artırılması, eləcə də müştərilərin ticarət və risklərin iarə olunması üzrə bütün mövzularda maliyyə biliklərinin artırılması məqsədi ilə müfəssəl təlimlərin təşkil olunması və nəticə etibarilə müştərilərin öz hesabları üzrə minimal tələb olunan səviyyədən daha artıq vəsaitlə təmin olunmasının təşviq edilməsi vasitəsilə qismən idarə olunur.

### Bazar riski

Cəmiyyət bazar riskinə məruz qalır. Bazar riski ümumi və xüsusi bazar dəyişiklərinə məruz qalan xarici valyuta və faiz gəliri yaradan aktiv və öhdəliklərdə olan açıq mövqedən yaranır. Rəhbərlik qəbul edilə bilən risk səviyyələri üzrə məhdudiyyətlər təyin edir və onların gündəlik monitorinqini keçirir. Buna baxmayaraq, bu metodun istifadə edilməsi daha zəruri bazar dəyişikləri baş verdikdə bu çərçivələrdən kənar zərərlərin qarşısını ala bilməz.

### Xarici valyuta riski

Xarici valyuta riskini idarə edərkən Rəhbərlik xarici valyuta riskinə qarşı konkret valyutalar üzrə və ümumi limitlər təyin edir. Nəzarət hər ay həyata keçirilir.

Aşağıdakı cədvəl 31 dekabr 2023-cü il tarixinə xarici valyuta məzənnələrinin dəyişilməsindən yaranan risk dərəcələrini əks etdirir:

| | AZN | ABŞ dolları | Cəmi |
|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 23,712 | 112,571 | **136,283** |
| Ticarət hesabında olan pul vəsaitləri | 340 | 112,040 | **112,380** |
| Müştərilərin investisiya portfeli | - | 20,991 | **20,991** |
| İnvestisiya qiymətli kağızları | 1,080,066 | - | **1,080,066** |
| **Cəmi maliyyə aktivləri** | **1,104,118** | **245,602** | **1,349,720** |
| **Maliyyə öhdəlikləri** | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | - | 112,380 | **112,380** |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 1,032,000 | - | **1,032,000** |
| İcarə öhdəlikləri | 121,375 | - | **121,375** |
| **Cəmi maliyyə öhdəlikləri** | **1,153,375** | **112,380** | **1,265,755** |
| **Açıq valyuta mövqeyi** | **(49,257)** | **133,222** | **83,965** |

**23. Maliyyə risklərinin idarə edilməsi (davamı)**

**Xarici valyuta riski (davamı)**

Aşağıdakı cədvəl 31 dekabr 2022-ci il tarixinə xarici valyuta məzənnələrinin dəyişilməsindən yaranan risk dərəcələrini əks etdirir:

| | AZN | ABŞ dolları | Cəmi |
|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 698,757 | 229,098 | 927,855 |
| Ticarət hesabında olan pul vəsaitləri | 50,704 | - | 50,704 |
| Müştərilərin investisiya portfeli | 2,203,691 | - | 2,203,691 |
| İnvestisiya qiymətli kağızları | 458,600 | - | 458,600 |
| **Cəmi maliyyə aktivləri** | **3,411,752** | **229,098** | **3,640,850** |
| **Maliyyə öhdəlikləri** | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | 2,258,735 | - | 2,258,735 |
| **Cəmi maliyyə öhdəlikləri** | **2,258,735** | **-** | **2,258,735** |
| **Açıq valyuta mövqeyi** | **1,153,017** | **229,098** | **1,382,115** |

Yuxarıdakı təhlillərə yalnız maliyyə aktivləri və öhdəlikləri daxildir. Qeyri-maliyyə aktivləri əhəmiyyətli valyuta risklərinin yaranmasına gətirib çıxarmır. Ticarət əməliyyatları nəticəsində xarici valyuta riskinə nəzarət Cəmiyyətin müqavilə əsasında cəlb etdiyi kənar maliyyəçi tərəfindən müntəzəm olaraq həyata keçirilir və aşağıdakı qaydada idarə olunur:

i Hər səviyyə üzrə xarici valyutalar arasında mövqelərin və bu valyutalar üzrə müvafiq likvidlik səviyyələrinin monitorinqi;

ii Xarici valyutaların, xüsusilə də ABŞ dollarının məzənnələrində gələcək dəyişmələrin proqnozlaşdırılması.

Cəmiyyətin mənfəət və zərərinə təsirindən əlavə valyuta dəyişmə dərəcələrində belə dəyişikliklərin Cəmiyyətin kapitalına təsiri mövcud deyil. Məruz qalma Cəmiyyət müəssisəsinin əməliyyat valyutası olmayan valyutada əks etdirilən maliyyə qalıqları üçün hesablanır.

**Likvidlik riski**

Likvidlik riski maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir.
Cəmiyyət mövcud nağd vəsaitlərinə görə gündəlik çağırışlara məruz qalır. Likvidlik riski Cəmiyyətin xarici maliyyə funksiyası tərəfindən idarə edilir. Rəhbərlik, Cəmiyyətin pul vəsaitlərinin hərəkəti üzrə aylıq proqnozlara nəzarət edir. Likvidliyin idarəedilməsi müddəti çatan öhdəliklərin qarşılanabilməsi üçün lazım olan likvid aktivlərin səviyyəsini nəzarətdə saxlamağı, müxtəlif maliyyə resurslarına əlçatanlılığı davam etdirməyi və likvidlik nisbətini nizamlayıcı tələblərə qarşı izləməyi zəruri edir.

Gündəlik likvidlik vəziyyəti xarici maliyyə funksiyası tərəfindən izlənilir və normal və nadir bazar şəraitində fərqli ssenarilərdə davamlı likvidlik stres testləri icra edilir. Xarici maliyyə funksiyasının məsuliyyəti aşağıdakılardır:

- Pul vəsaitlərinin hərəkətinin proqnozu və hesabatlılığı
- Likvidlik konsentrasiyası risk faktoru olaraq ən böyük təchizatçıların izlənməsi
- Zəruri hallarda orta və qısamüddətli borcların alınması üçün yerli və beynəlxalq bazarlarda aktiv iştirak;
- Cəmiyyətin fəaliyyətinin genişləndirilməsi nəticəsində yarana biləcək pul vəsaitlərinin hərəkətinin monitorinqi.

## 23. Maliyyə risklərinin idarə edilməsi (davamı)

**Likvidlik riski (davamı)**

Likvidlik risklərinin 31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixinə təhlili müvafiq olaraq aşağıdakı cədvəllərdə göstərilir:

| | Tələb edilənədək və ya 1 aydan az | 1 aydan 6 ayadək | 6 aydan 12 ayadək | 12 aydan 5 ilədək | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 136,283 | - | - | - | - | 136,283 |
| Ticarət hesabında olan pul vəsaitləri | 112,380 | - | - | - | - | 112,380 |
| Müştərilərin investisiya portfeli | 20,991 | - | - | - | - | 20,991 |
| İnvestisiya qiymətli kağızları | 1,080,066 | - | - | - | - | 1,080,066 |
| **Cəmi maliyyə aktivləri** | **1,349,720** | **-** | **-** | **-** | **-** | **1,349,720** |
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | 112,380 | - | - | - | - | 112,380 |
| Repo müqavilələri əsasında borc alınmış vəsaitlər | 619,200 | 412,800 | - | - | - | 1,032,000 |
| İcarə öhdəlikləri | 3,511 | 19,978 | 24,979 | 72,907 | - | 121,375 |
| **Cəmi maliyyə öhdəlikləri** | **735,091** | **432,778** | **24,979** | **72,907** | **-** | **1,265,755** |
| **Xalis likvidlik aralığı** | **614,629** | **(432,778)** | **(24,979)** | **(72,907)** | **-** | **83,965** |
| **Yığılmış likvidlik aralığı** | **614,629** | **181,851** | **156,872** | **83,965** | **83,965** | |

| | Tələb edilənədək və ya 1 aydan az | 1 aydan 6 ayadək | 6 aydan 12 ayadək | 12 aydan 5 ilədək | 5 ildən çox | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Maliyyə aktivləri** | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 927,855 | - | - | - | - | 927,855 |
| Ticarət hesabında olan pul vəsaitləri | 50,704 | - | - | - | - | 50,704 |
| Müştərilərin investisiya portfeli | 2,203,691 | - | - | - | - | 2,203,691 |
| İnvestisiya qiymətli kağızları | 458,600 | - | - | - | - | 458,600 |
| **Cəmi maliyyə aktivləri** | **3,640,850** | **-** | **-** | **-** | **-** | **3,640,850** |
| **Maliyyə öhdəlikləri** | | | | | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | 2,258,735 | - | - | - | - | 2,258,735 |
| **Cəmi maliyyə öhdəlikləri** | **2,258,735** | **-** | **-** | **-** | **-** | **2,258,735** |
| **Xalis likvidlik aralığı** | **1,382,115** | **-** | **-** | **-** | **-** | **1,382,115** |
| **Yığılmış likvidlik aralığı** | **1,382,115** | **1,382,115** | **1,382,115** | **1,382,115** | **1,382,115** | |

## 24. Əlaqəli tərəflərlə əməliyyatlar

Ehtimal edilən hər hansı bir əlaqəli tərəfi nəzərə alarkən, əlaqənin təkcə hüquqi formasına deyil həmçinin mahiyyətinə diqqət yetirilir.

31 dekabr 2023-cü il və 31 dekabr 2022-ci il tarixlərinə əlaqəli tərəflərlə əməliyyatlar üzrə qalıqlar aşağıda göstərilir:

| | 31 dekabr 2023-cü il | | 31 dekabr 2022-ci il | |
|---|---|---|---|---|
| | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu band üzrə cəmi məbləğ** | **Əlaqəli tərəflərlə olan qalıqlar** | **Maliyyə hesabatlarında bu band üzrə cəmi məbləğ** |
| **Əməliyyat gəliri** | | | | |
| Səhmdar | - | - | 351,187 | 1,111,630 |
| **Faiz gəliri** | | | | |
| Səhmdar | - | - | 122,549 | 122,549 |
| **Pul və pul ekvivalentləri** | | | | |
| Səhmdar | - | - | 3,038,158 | 3,206,045 |
| **İşçi heyəti ilə bağlı xərclər** | | | | |
| Rəhbərliyə ödənişlər | 54,000 | 222,129 | 54,000 | 234,031 |
| Cəmi | **54,000** | **222,129** | **3,565,894** | **4,674,255** |

## 25. Hesabat tarixindən sonrakı hadisələr

Hesabat tarixindən sonra heç bir əhəmiyyətli hadisə baş verməmişdir.